# "Adəmdən Xatəmə yol gedən alma..."

## Qardaşxan Əzizxanlıya özünü yeddinci qatda hiss etdirən yaradıcılıq gecəsinin yeddi məqamı

**(əvvəli qəzetin 18 yanvar sayında)**

**Qardaşxanın çox gözəl övladları var. Gözəl bir nəsildəndir... Burada başqa gözəl qələm adamları da yetişib. Şəkər Aslan, Yaşar Rzayev... yaxşı yadımdadır. Qardaşxanın hesabına gəlib burada adını eşidib, üzünü görmədiyim, imzasını sevdiyim adamlarla-Tərlan Əbilovla, Etibar müəllimlə tanış oldum.**

...Bir Vidadi Məmmədov vardı,-Bərdəliydi. Bir dəfə Ağdamda toyda bir sağlıq dedi. Vaqif Cəbrayılzadə, Əbülfəz Elçibəy də ordaydılar. Dedi, Bərdədən keçəndə, maşında gizləndim, məni görməsinlər. Utandım Bərdə torpağından, yəni ki, mən bu Bərdəyə nə vermişəm?! Heç nə! 40 ildi getmişəm bu yerdən... Mənim qohumum... o da məşhur şairdi maşın sürürdü şəstlə... əslində, o da gizlənməliydi, çünki o da heç nə verməmişdi Bərdə torpağına. Vaqif Cəbrayılzadə Cəbrayılda dik gəzə bilər, Əbülfəz bəy də türk dünyasında. Belə bir ifadə işlətdi. İndi sən, Qardaşxan, bu torpaqda, tək bu cənub bölgəsində yox, bütün Azərbaycanda başını dik tutub gəzə bilən oğulsan və dik də gəzirsən. Yəni sən bu torpağı yüksəltmisən, Lənkəranı, bu cənub bölgəsini çiyninə almısan. Bayaq deyirsən Nizamidən yuxarıda kimsə yoxdu, məndən də aşağıda. Sən aşağıda deyilsən, sən bu torpağı çiyninə almısan deyən aşağıdasan. Sən doğulduğun torpağı qiymətə mindirən oğulsan.

Bir də bu görüşü təşkil eləyənlərə minnətdarlığımı bildirirəm. Bura eləbelə bir yer deyil, müqəddəs ocaqdı, Heydər Əliyev mərkəzidi. Bu ocağı sənə bağışlayıb, burada sənin tədbirini keçirənlərə təşəkkür eləyirəm.

Burada tələbələri görürəm. Onlara da bir-iki söz deyim. Tələbə görəndə adam istəyir ki, onları danlasın... Dördcə ildi, dörd il... O dörd ili adam kimi oxusanız, 50-60 il onu xərcləyəcəksiniz. Elə bil əmanət kassasına qoymusunuz, 50-60 il ordan pul çəkəcəksiniz. Ona görə də oxuyun, Qardaşxan kimi bu millətə xeyir verin!

### IV not

**İ.Fəhmi:** ”Əslində, ssenari üzrə sözü məktəblilərə verməliyəm, amma mən ssenarini pozacağam,-dedi,-çünki, mənim Qardaşxan müəllimə çoxdan ürəyimdə dolandırdığım suallar var. Bu müddət ərzində o sualları vermirdim. Bilirdim tədbir olacaq. Burada çoxlu poeziya həvəsliləri var, düşünürəm onlar üçün də maraqlı olar. Sırf poetik bir məqamdı. Qardaşxan müəllimin şeirlərinə diqqət yetirən insan hiss eləyir ki, bu şeirlərdə bir incə, zərif məqama təkrar-təkrar qayıdılır. Bu da nədən ibarətdir; bizim məşhur bir xalq mahnımız var: ”Pəncərədən daş gəlir, Ay bəri bax, bəri bax...” Bu ifadə onun müxtəlif şeirlərindən bir obraz olaraq çeşidli formada keçir. Mən başqa bir şairdə belə bir şeyə rast gəlməmişəm ki, bir motiv, bir melodiya,-kinoda sauntrek (soundtrack) deyirlər ona, -bu çür təkrar olunsun. Qardaşxan müəllimin, istər qoşmalarında, gəraylılarında, ya da başqa formalı şeirlərində sauntrek rolunu ”Pəncərədən daş gəlir” oynayır və bu poetik şifrə, açar, bəzən bir zərbə, ağrı.., obrazın mahiyyəti tək ortaya çıxır. Müəyyən mənada aydındır bu,- xalqımızın çəkdiyi iztirablar, başına gələn faciələr var... Bu təhtəlşüurdan gələn bir məqamdımı, yoxsa bu bir simvoldu... Qardaşxan müəllimin yaradıcılığını tədqiq edənlər hökmən bu sistemi araşdıracaqlar. Çünki bu sistem, bu obraz Qardaşxan şeirinin ana xəttidir. İstərdim özü buna aydınlıq gətirsin.

### V not

**Qardaşxan:** Yaman yerdə axşamladıq... Deyə bilərəm ki, ”Pəncərədən gələn daş” orta məktəb illərindən bir ”sevgi daşı” kimi ”gəlməyə” başlayıb, sonradan, ictimailəşib, fəlsəfiləşib, belə demək mümkünsə, gah ”ictimai daş”a, gah ”fəlsəfi daş”a çevrilib məndən ötrü. Təkdən cəmə, fərddən çoxa doğru gedib. Əvvəli belə başlayıb:

**”Pəncərədən daş gəlir,**
**Ay bəri bax, bəri bax...”**
**Gör bu səs tanış gəlir:**
**”Ay bəri bax, bəri bax...”**

**Pəncərədən daş gəlir...**
**Gəlsəm yəqin görərəm**
**Xumar gözdən yaş gəlib.**
**Səni yada veriblər,**
**Hamıya da xoş gəlib.**

**Pəncərədən gələn daş**
**dəydi bəxtimə, dəydi,**
**Sındırdı onu, qardaş!**

**Bəxtimə dəyən daşı**
**gərək vaxtlı görəydim.**
**Sinəmdəki atəşi**



**pəncərəyə hörəydim,**
**Çatlayaydı o daş da,**
**Pəncərəyə baxanda**
**özgə göz də, baxış da!**
**Gəlsəm yəqin görərəm**
**xumar gözü yaşlı qız**
**Xısın-xısın ağlayır.**
**Bir ”Vağzalı” zənciri**
**qollarımı bağlayır.**

**Bəlkə elə görərəm**
**yetib payız hədəsi,**
**Çatıb vaxtı, vədəsi**
**Ayrılıb gəlin köçür**
**pəncərəsi daşlı qız...**

**Son dəfə o küçədə**
**xumar gözdən yaş gələr.**
**Son dəfə o gecədə**
**pəncərədən daş gələr...**

Sonralar, dediyim kimi, rəngdən rəngə düşüb, göyqurşağı tək çeşidli rəng çalarları alıb.

Məsələn, ”Bir anadil olsaydım” şeirindəki:

**Anasız anamın anası dilim!..**
**Adəmdən Xatəmə yol gedən alma,**
**Dünyaya Nyuton bəxş edən alma,-**
**Mənə Pəncərədən daş kimi gəlib...**
**Lalın da dilini anası bilir,**
**Hanı mənim dilim? Onu tap, ana!**
**Ağzımda alışıb yanası dilim,-**
**Xəzinə qalmadı onu tapana.**
**Xəzinə talayıb- çapana qaldı,**
**Oxunmaz Qubanın ağ alması da.**
**Yəqin ki, qiyamət qopana qaldı**
**Mənim bu yaramın sağalması da!**

ya da, sonrakı şeirlərdəki kimi:

***

**Çiçəklənib alça, göyəm,**
**Qarşı duran dağ təzə-tər.**
**Arx üstündə mən köhnəyəm,**
**Arx kənarı bağ təzə-tər.**
**Gecənin göy üzünə də**
**bağdan güllər aşıb-daşıb.**
**Əsli də göy üzündədi**
**pəncərədən gələn daşın.**
**Qızın yaz çağı, yaz çağı**
**qar qalanıb hara gör bir!**
**Qışın oğlan çağı deyil!**
**Oğlanın qış çağıdı, bil,**
**Yazın qız çağı, qız çağı**
**buz qəlbə dov gələ bilmir!**

***

**Bu qapısız dünyada**
**pəncərədən daş gələr,**
**Pəncərəyə hər baxan**
**öz daşına tuş gələr.**

**Dünyamızı dəyişər**
**pəncərədən gələn daş,**
**Göz yaşı tək yaşayan,**
**Baş daşı tək ölən daş.**

**Bu qapısız dünyadan**
**gələrik biz dünyaya.**
**Gedərik bu dünyadan**
**pəncərəsiz dünyaya.**

***

**Bir tale ki, pəncərədən daş kimi gəlsin,**
**Bir ömür ki, xumar gözdən yaş kimi gəlsin,**
**Kim görüb hər ”Bəri bax”dan bir geri baxıb,**
**Allaha xoş gəlməyənin xoş günü gəlsin?!**

**Bir Yazı ki, eşq nağılı ”Min bir gecə”lik,**
**Bir şeir ki, dua kimi deyib, dincələk.**
**Uzun sözün qısasını yazan bir şeir,**
**Yazan sözün qısasına yazıb hər şeyi!**

**Qırx incəbel qızla bağda süzən bir şeir,**
**Sərv boyu tül yelkəndə üzən bir şeir,**
**İki daşın arasından sızan bir şeir,**
**Çay əli dağ ətəyindən uzun bir şeir...**

**Bu da sənə uzun sürən qaranlıq gecə,**
**Sanki qurdla qiyamətə qalan bir qoca,**
**Arxasınca ayağını sürüyən küçə,**
**Günəşli gündüzdən, aylı gecədən keçə!**

**Ay mərcanı çaya düşən göy bəndə düşə,**
**Ay könüldən çay adlı bir kəməndə düşə.**
**Ay sayrışan burulğan su sal daşda çaşa,**
**Çay məcranı dəyişə, sel-su daşdan daşa!..**

**Dağ çilleyi- kamanına mindirib çayı,**
**Əldən çıxan misra çəkib sözbəsöz yayı.**
**Dağdakı kef düzdə çayın burnundan gəlib,**
**Kim qaytarıb gözəl Tanrı göndərən payı?!**

İ.Fəhmi: Qoy birini də mən oxuyum:

**Gündüzlər ağ pərdədir,**
**Gecələr qara pərdə.**
**Bu dünya bir səhnədir**
**tale oynayan yerdə.**

**Ulduzlar ağ yalandır,**
**Günəş- qırmızı yalan.**
**Hamıdan yalançıdır,**
**Hamıdan doğru olan.**

**”Pəncərədən daş gəlir,”**
**”Bəri bax” dünyasıdır.**
**Ən haqsız adamın da**
**yeri haqq dünyasıdır.**

### V təqdimat (fraqment)

**Ağamir Cavad:** Ulu Nizami də deyib:

**Sözün qanadları var quş kimi incə- incə,**
**Dünyada söz olmasa, nəyə lazım düşüncə.**

Həqiqətən də, dilimizin saflığını qoruyan gözəl şairlərimizdən biri Qardaşxan Əzizxanlıdır. Qardaşxanı biz ilk kitabından sevmişik. İlk kitabı 1990-cı ildə çıxan ”Qaşla göz arasında” idi.

O vaxt Qardaşxanı şəxsən tanımırdım. Amma o kitabı oxuyanda oradakı şeirlər yaddaşıma həkk olundu. ”Ay bəxtim ay bədirlənə” misrası ilə başlayan bir şeiri də vardı, elə bil xalqın ruhu ona hopmuşdu, onu çox məclisdə demişəm.

Bayaq İlqar Fəhmi Qardaşxan şeirinin ana xəttini təşkil edən bir obrazdan- ”Pəncərədən daş gəlir”dən söz açdı. Bu mənim də diqqətimi cəlb etmişdi. Ümumiyyətlə, bu ”daş” məsələsi Qardaşxanın çox şeirində var: ”Allahın əlində daş Bu millətin başına Bilmir salsın-salmasın” və s.

**(ardı gələn sayımızda)**

**Qələmə aldı:**
**Əli AĞAZADƏ**